**Tacikistan Qızıl Aypara Cəmiyyəti**
**və**
**Azərbaycan Qızıl Aypara Cəmiyyəti**
**arasında**

**ANLAŞILMA MEMORANDUMU**

## 1. Giriş

Tacikistan Qızıl Aypara Cəmiyyəti ilə Azərbaycan Qızıl Aypara Cəmiyyəti (bundan sonra “Partnyorlar” adlandırılacaq) aşağıdakılar üzrə razılığa gəlirlər:

1.1. Hər iki tərəf gələcəkdə iki Milli Cəmiyyət arasında partnyorluq və dostluq əlaqələrini gücləndirmək və Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkarının (bundan sonra “Hərəkat” adlandırılacaq) inkişafına kömək etmək məqsədilə əməkdaşlıq etməyə başlamaq istəyini bir daha təsdiq edirlər.

1.2. Bu Anlaşılma Memorandumu sosial, sağlamlıq, qayğı və ilk yardım, fəlakətə hazırlıq, fandreizinq və resurs mobilizasiyası, gənclər və könüllülüyün idarə olunması, imkanqurma və inkişaf təşəbbüsləri kimi müxtəlif sahələrdə əməkdaşlıq etmək barədə Tacikistan Qızıl Aypara Cəmiyyəti ilə Azərbaycan Qızıl Aypara Cəmiyyəti arasındakı razılaşmanı bir sənəd kimi qeydə alır.

1.3. Tərəflər Seviliya Sazişləri, Hərəkatın Fundamental Prinsipləri və Nizamnaməsi, Federasiyanın Baş Assambleyasının qərarlarının, Beynəlxalq Konfransın qətnamələrinin bütün hallarda işlədiləcəyini yada salırlar.

1.4. Anlaşılma Memorandumu Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının 2020-ci il Strategiyası, hər iki Milli Cəmiyyətin Nizamnamələri və Strateji Planlarına uyğunlaşdırılır.

## 2. Preambula

Xidimətləri idarə etmək və keyfiyyətli xidmətlər göstərmək sahəsində hər iki Milli Cəmiyyətin adekvat imkanlarını təmin etmək məqsədilə və Hərəkat daxilində həmrəylik ruhunda Tərəflər prioritetləri müzakirə edəcək və hər iki Milli Cəmiyyət arasında yardımı inkişaf etdirmək üçün ardıcıl və yaxşı koordinasiya olunan yanaşma barədə razılığa gələcək.

Tacikistan Qızıl Aypara Cəmiyyəti və Azərbaycan Qızıl Aypara Cəmiyyəti təcrübə mübadiləsi və təlimlər vasitəsilə aşağıdakı sahələrdə əməkdaşlıq edəcəklər:

* Təşkilati İnkişaf

* Fandreyzinq və Resurs Mobilizasiyası

* Fəlakətin İdarə olunması və Fəlakətə hazırlaşma

* İcma əsaslı sosial sağlamlıq və İlk Yardım

* Gənclər və Könüllülüyün İdarə olinmasının İnkişaf etdirilməsi

* Hər iki Milli Cəmiyyət arasında proqram mübadiləsi üçün səfərlər etmək

* Əhalinin ən zavallı təbəqələrinə humanitar yardım

* Tacikistan Qızıl Aypara Cəmiyyəti ilə Azərbaycan Qızıl Aypara Cəmiyyəti arasında digər ilgili fəaliyyətlər.

Bu Anlaşılma Memorandumuna əlavə olaraq tərəflər birgə fəaliyyətlər, hər iki Milli Cəmiyyət arasındakı istənilən proqramlar və ya layihələrə dair Spesifik Layihə İcrası Müqaviləsinin birgə olaraq hazırlanmasını müzakirə edəcək və bu barədə razılığa gələcəklər. Spesifik Layihə İcrası Müqaviləsində qaydalar və hər iki tərəfin məsuliyyətləri, icra prosedurаları, maliyyələşdirmə, hesabatvermə və qiymətləndirmə göstəriləcəkdir.

**3. Anlaşılma Memorandumunun davam etmə müddəti**

İngilis dilində iki identik orijinal nüsxədə hazırlanan bu Anlaşılma Memorandumu tərəflərin səlahiyyətli nümayəndələri tərəfindən imzalandıqdan sonra dərhal qüvvəyə minəcək. Bu Anlaşılma Memorandumunun davam etmə müddəti 5 (beş) ildir. Tərəflər lazım bildikdə Anlaşılma Memorandumunu yenidən nəzərdən keçirə bilərlər.

**4. Birgə məsuliyyətlər.**

Bu Anlaşılma Memorandumunda hər iki Milli Cəmiyyət bərabər partnyorlardır. Hər iki Milli Cəmiyyət proqramlara sahiblik edir və programların müvəffəqiyyətli olması üçün lazımi səylər göstərirlər.

4.1. Müvafiq mandatlarına uyğun olaraq daha səmərəli və effektiv xidmətlər göstərmək üçün özlərinin müvafiq imkanlarını gücləndirmək və idarə etmək baxımından Partnyorların biri-birinə göstərdikləri dəstəyin qarşılıqlı faydalı olmasını təmin etmək.

4.2. Layihə/proqramların ən zavallı insanların ehtiyaclarına xidmət etməsini təmin etmək, yardım, reabilitasiya və inkişaf arasında bağlantının layihə/proqramlara salınmasını təmin etmək.

4.3. Tərəflərin strategiyaları, siyasətləri və fəaliyyətlərinə dair kifayət qədər ümumi informasiya mübadiləsini təmin edən Milli Cəmiyyətlər arasında anlaşma və əməkdaşlığa kömək etmək. Könüllü və işçilərin təlimlərdə, gənclər və digər düşərgələrdə, oxşar tədbirlərdə iştirak etmə imkanlarını inkişaf etdirməyə nail olmaq, habelə Tərəflərin təşkil etdiyi işçilərlə mübadiləyə nail olmaq və beləliklə də qarşılıqlı imkan qurmanın və Hərəkatın gücləndirilməsi.

**5. Modifikasiyalar və fikir ayrılıqları**

5.1. Tərəflərin qarşılıqlı razılığı ilə bu Anlaşılma Memorandumuna düzəlişlər edilə bilər və belə bir razılıq yazılı şəkildə olmalıdır.

5.2. Bu Anlaşılma Memorandumunun interpretasiyası ilə ilgili hər hansı mümkün fikir ayrılığını tərəflər sülh yolu ilə həll etməlidirlər. Sülh yolu ilə həll etmək mümkün olmadıqda Beynəlxalq Federasiya proseduralarına uyğun olaraq tərəflər məsələyə baxılmaq üçün onu Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasına ünvanlandırmağa razılıq verirlər.

**6. Yekun müddəalar.**

6.1. Bu Anlaşılma Memorandumu Tərəflər onu imzaladıqdan sonra qüvvəyə minir və 5 (beş) il müddətinə etibarlı sayılır.

6.2. Bu Anlaşılma Memorandumu onu hər iki tərəfin imzalaması vasitəsilə razılaşdırılmış olan etibarlılıq müddətinin sonunda uzadıla bilər.

6.3. Proqramlar/layihələr xüsusunda hər hansı çətinliklər və ya hər hansı mühüm hadisələr barədə bu Anlaşılma Memorandumunu imzalayan tərəflər dərhal bir-birilərinə məlumat verməlidirlər.

6.4. Tərəflərdən biri bu Anlaşılma Memorandumuna xitam verməyi qərara alarsa o zaman digər Tərəfə 1 (bir) ay qabaqcadan yazılı xəbərdarlıq etməlidir.

6.5. Bu Anlaşılma Memorandumu ingilis dilində etibarlıdır və iki nüsxədə imzalanacaq.

Aşağıda imzalamışlar:

Düşənbə......................

....................................
Cənab. Murodəli Ruziyev
Baş Katib
Tacikistan Qızıl Aypara Cəmiyyəti

Bakı........................

.................................
Cənab. Bayram Vəliyev
Baş Katib
Azərbaycan Qızıl Aypara Cəmiyyəti